Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Zəngin Adam, Kasıb Adam



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Alastair Paterson; M. Maillot; Lazarus

Uyğunlaşdıran: M. Maillot; Sarah S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

İsa bəzi din rəhbərlərinin pulu Allahdan daha çox sevdiklərini bilirdi.



O, iki adamın başına nə gəldiyini və Allahsız zənginliyin nə üçün lazımsız olması haqda danışdı. Göylərdəki Allahla olan həyatı var-dövlətlə almaq olmaz.



Çox bahalı və gözəl paltarı olan zəngin bir adam var idi. O, padşah kimi geyinirdi.



Zəngin adam həmçinin çox yaxşı qidalanırdı. Onun hər yeməyi böyük ziyafət kimi olurdu. Onun o qədər pulu var idi ki, səhər, günorta, axşam yeməyi və ya yüngül qəlyənaltı üçün ürəyi istədiyi hər bir şeyi ala bilərdi.



Zəngin adamın evinin darvazası yanında kasıb, xəstə, ac bir dilənçi uzanmışdı.

Onun adı Lazar idi.




Kasıb Lazarın bütün bədəni yara içində idi. Yəqin ki,onun xəstəliyi var idi. Ola bilər ki, başqaları tərəfindən döyülməkdən bədənində çapıqlar və göyərmiş yerlər var idi.

Bəlkə onun bədənində
irinli çibanlar da var idi,
çünki onun süd, tərəvəz,
yaxud ət kimi yaxşı
qidası yox idi.



Lazar yemək həsrətində idi. O, zəngin adamın süfrəsindən tökülən qırıntıları arzulayırdı.



Sahibsiz itlər bəzən kasıb və köməksiz dilənçinin ətrafında dolaşırdı. Onu iyləyir və yaralarını yalayırdılar.



Belə görünür ki, heç kim Lazarın acından ölməsinə fikir vermirdi.



Bir gün səhər Lazar yuxudan oyanmadı. Aclıq çəkən, tənha və kasıb dilənçi bu həyatı tərk etdi.  Lazar öldü.



Lazar öldüyü an onun üçün sevinc başladı.  İsa mələklərə dedi ki, onu İbrahimin yanına aparsınlar. Allah Lazara təsəlli verdi.



Zəngin adam da öldü.  Bütün var-dövləti, zənginliyi onun həyatını xilas edə bilmədi. Ölüm gələndə heç kim bunun qarşısını ala bilmədi.



Zəngin adamı dəfn etdilər.  Ola bilsin ki, bu, böyük dəfn idi.  Bəlkə insanlar zəngin adamı ağıllı və uğurlu olduğuna görə alqışlayırdılar.



Lakin onların alqışları ona kömək etmədi. Zəngin adam cəhənnəmdə idi.




Zəngin adam cəhənnəmdə fəryad etdi: “Ey İbrahim ata, mənə rəhm et!  Lazarı göndər, barmağının ucunu suya batırıb mənim dilimi sərinlətsin, çünki mən bu od-alov içində əzab çəkirəm”.

İbrahim ona xatırlatdı: “İndi Lazar təsəlli tapır, amma sən əzab çəkirsən. Heç kim səninlə bizim aramızdakı dərin uçurumu keçə bilməz”.





Zəngin adam yalvardı: “Lazarı göndər mənim beş qardaşıma xəbərdarlıq etsin”. “Onların da bu yerdə əzab çəkmələrini istəmirəm”.



İbrahim cavab verdi:
“Sənin qardaşlarında
Allahın Sözü var”.



Əgər beş qardaş Müqəddəs Kitaba iman etmədilərsə, onda əgər Lazar ölülərdən dirilsə də inanmazlar.



İsa zəngin adam və Lazarın hekayəsini bitirəndə, ola bilsin ki, din rəhbərləri özlərinə sual verdilər: “Mən zənginliyi Allahdan daha çox sevirəmmi?”



İndi onlar, əgər Allahın Sözünə diqqət yetirməsələr nə baş verəcəyini bilirdilər.



# Zəngin Adam, Kasıb Adam

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Luka 16

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**